# Böyük Qayıdış: ümid, inam və gerçəklik

Ağdam sürətlə yenidən qurulur və artıq çox az müddətdən sonra bir zamanlar erməni işğalı səbəbindən öz tarixi torpaqlarından, dədə-baba yurdlarından didərgin düşmüş vətəndaşlarımız bu torpaqlara daimi yaşamaq üçün geri dönəcəklər. Bu gün Ağdam rayonunun bərpası ilə bağlı həyata keçirilən kompleks tədbirlərin miqyası və əhatəliliyi bunu deməyə əsas verir. Ölkə Prezidenti cənab İlham Əliyevin birbaşa göstərişləri əsasında artıq Ağdamın gələcək inkişafı ilə bağlı bir çox önəmli addımlar atılıb və bu istiqamətdə işlər davam etdirilir. Fevral ayının 13-də Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Ağdam rayonuna növbəti səfərləri də bu proseslərin dövlətin xüsusi diqqət və qayğısı ilə əhatə olunduğunun əməli təzahürüdür.



## Yaradılan genişmiqyaslı infrastruktur iqtisadi yüksəlişin, firavan həyatın təməlidir

Dövlətimizin başçısı və birinci xanım "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin 110/35/10 kV-luq "Ağdam-1" və "Ağdam-2" elektrik yarımstansiyalarının, "Qarabağ" Regional Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzinin açılışlarında iştirak ediblər. Sonra Prezident İlham Əliyev Ağdam Sənaye Parkında fəaliyyət göstərəcək alternativ və bərpa olunan enerji mənbələri ilə qidalanan işıq dirəklərinin, digər qurğuların və Xalça istehsalı müəssisələrinin, "Park Forest Otel Ağdam" mehmanxanasının və 209 mənzildən ibarət yeni yaşayış kompleksinin təməllərini qoyub. Heydər Əliyev Fondu tərəfindən Ağdam Cümə məscidində aparılan bərpa-restavrasiya işlərinin gedişi ilə maraqlanıblar. Dövlətimizin başçısı 210 çarpayılıq Ağdam Rayon Mərkəzi Xəstəxanasının da təməlini qoyub. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin qərargahında yaradılan şəraitlə tanış olub, Qarabağ xanlarının türbələri və yaşayış evi - İmarət kompleksinə baş çəkiblər.

**(davamı 3-cü səhifədə)**

# Böyük Qayıdış: ümid, inam və gerçəklik

## Yaradılan genişmiqyaslı infrastruktur iqtisadi yüksəlişin, firavan həyatın təməlidir

(əvvəli 1-ci səhifədə)

30 ildə ermənilərin dağıdaraq viran qoyduğu ərazilərimiz qarış-qarış yenidən qurulub bərpa edilir. 44 günlük Vətən müharibəsindən sonra bu ərazilərimizdə görülən işlərin miqyası çox genişdir və bu, Böyük Qayıdışın tezliklə baş tutacağından xəbər verir. Ağdama səfəri çərçivəsində Prezident İlham Əliyevin açılışını etdiyi müəssisələr və təməlini qoyduğu obyektlər rayonun məruz qaldığı erməni vandalizminin nəticələrinin tezliklə tamamilə aradan qaldırılmasına və bu torpaqların yenidən dirçəlməsinə misilsiz töhfələr verəcək. İşğaldan azad edilmiş bütün ərazilərimizdə ilk növbədə kommunikasiyaların bərpası və yenidən qurulması layihələri həyata keçirilir ki, bu da Böyük Qayıdışla bağlı ilkin mərhələnin ən vacib və zəruri komponentlərindən biridir. Yol və nəqliyyat layihələrinin icrası istər ərazilərimizin minalarla çirkləndirilməsi baxımından, istərsə də köhnə infrastrukturun tamamilə dağıdılması səbəbilə ən çətin vəzifələrdən biri idi. Qısa müddətdə demək olar ki, azad edilmiş ərazilərimizin böyük bir hissəsində bu işlər çox sürətlə həyata keçirildi. İkinci mərhələ isə enerji layihələrinin icra olunması idi. Bu da özlüyündə mürəkkəb və yenə də təhlükəsizlik məsələləri baxımından olduqca çox diqqət və zaman tələb edən məsələdir. Ancaq Azərbaycan qısa müddətdə bu çətinliklərin öhdəsindən gəlməyi bacardı.

Hazırda işğaldan azad edilmiş ərazilərimiz, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları üzrə elektrik enerjisi təminatı layihələri perspektiv tələbatı da nəzərə almaqla elə icra edilib ki, onlar elektrik enerjisi ilə təchizatın uzunmüddətli təminatçısı ola bilsin. Səfər çərçivəsində istifadəyə verilən yarımstansiyalar eyni zamanda ölkəmizin ümumi enerji şəbəkələrinə inteqrasiya edilməklə etibarlı təchizat üçün mühüm təminatçı olacaq. Elektrik enerjisi ilə fasiləsiz təminat işıqlı gələcəyin qurulması deməkdir. Gələcəkdə bu ərazilərdə yeni generasiya gücləri yaradılacaq. Bu istiqamətdə yeni su, günəş və külək stansiyaları tikiləcəkdir ki, bu da ümumi şəkildə Azərbaycanın enerji imkanlarını genişləndirməklə ixrac gücümüzü artıracaqdır. Bununla da, yol və enerji kommunikasiyalarının ən yüksək səviyyədə qurulması Qarabağ iqtisadi rayonunun inkişafı üçün mühüm rol oynayan paralel kommunikasiyalar olacaq. Şübhəsiz ki, yalnız bundan sonra azad edilmiş ərazilərimizdə sənaye kompleksləri və digər iş yerlərinin yaradılmasından danışmaq mümkündür ki, artıq bu istiqamətdə də paralel olaraq ardıcıl və sistemli addımlar atılmaqdadır. Ağdam səfəri zamanı Ağdam Sənaye Parkında iki müəssisənin təməlinin qoyulması gələcək iş yerlərinin yaradılması baxımından da mühüm əhəmiyyətli hadisədir. Belə ki, məskunlaşma və Böyük Qayıdış özlüyündə iş yerlərinin açılması və sosial təminatın əvvəlcədən yaradılmasını tələb edir ki, bu da həmin sahədə problemlərin həllinə kompleks yanaşmanı şərtləndirir.

Cənab Prezident Ağdama səfəri çərçivəsində yeni yaradılan Ağdam Sənaye Parkında iki müəssisənin təməlini qoyub. Beləliklə, bu parkda 5 rezident tərəfindən tikinti işlərinə başlanılıb. Sahibkarlarımız bu ərazilərdə investisiya layihələri həyata keçirirlər və bu işlərdə maraqlıdırlar. İşğaldan azad olunmuş ərazilərdə investisiya qoyacaq sahibkarlıq subyektləri üçün xüsusi güzəştlər tətbiq olunur. Həm də bu ərazilərin iqtisadi potensialı çox yüksəkdir. Dövlət bu işləri öz gücü hesabına edəcəkdir. Amma özəl sektorun da bu işlərdə iştirakı Böyük Qayıdışı daha da sürətləndirəcəkdir. Bu ərazilərə kapitalını yatıracaq hər bir sahibkar qısa bir zamanda yeni gəlirlər əldə edəcəkdir. Bu proses daha da genişlənməlidir. Cənab Prezident öz çıxışında ölkə sahibkarlarına bir daha çağırış edərək işğaldan azad olunmuş



ərazilərdə investisiyaların yatırılmasına və yeni müəssisələrin yaradılmasında iştirak etmələrini tövsiyə etdi. Təbii ki, Sənaye Parklarımızın 7-yə çatması ölkəmizin sənayeləşməsi prosesini sürətləndirəcəkdir.

Bu müəssisələrdən biri Ağdam Sənaye Parkının rezidenti "Smartpoint" MMC-yə məxsusdur. Layihə çərçivəsində alternativ və bərpaolunan enerji mənbələri ilə (əsasən günəş enerjisi) qidalanan işıq dirəklərinin və digər qurğuların istehsalı təşkil olunacaq. Layihənin investisiya dəyəri 9,1 milyon manatdır. Layihə çərçivəsində yaradılacaq müəssisədə Türkiyə və İtaliya texnologiyalarından istifadə ediləcək. Müəssisədə ildə 21 min işıq dirəyi və 40 meqavat gücündə digər qurğuların istehsal olunması nəzərdə tutulur. "Smartpoint" MMC Sənaye Parkının rezidentləri üçün nəzərdə tutulan bütün güzəştlərdən (tam infrastruktur təminatı və vergi azadolmaları) faydalanacaq. Sənaye Parkının 1,3 hektar ərazisində inşa ediləcək müəssisədə 80 daimi iş yeri yaradılacaq. Yaxın vaxtlarda müəssisənin layihələndirmə işlərinə başlanacaq. Müəssisənin 6 ay müddətində istismara verilməsi nəzərdə tutulur. İstehsal edilən məhsulların daxili bazarda satılması ilə yanaşı, Gürcüstan, Qazaxıstan və Özbəkistana da ixracı planlaşdırılır. Digər rezident olan "Dadaş-N" MMC Sənaye Parkında müxtəlif çeşidli sintetik xalçalar istehsal ediləcək. İnvestisiya dəyəri 9,5 milyon manat olan layihə çərçivəsində yaradılacaq müəssisədə il ərzində 700 min kvadratmetr xalça istehsalı nəzərdə tutulur. İstehsal prosesində polipropilen, polietilen və poliakril kimi yerli xammaldan istifadə olunacaq, Belçika və Çin texnologiyaları tətbiq ediləcək. "Dadaş-N" MMC Sənaye Parkının rezidentləri üçün nəzərdə tutulan bütün güzəştlərdən yararlanacaq. Sənaye Parkının 2 hektar ərazisində inşa ediləcək müəssisədə 60 daimi iş yeri yaradılacaq. Müəssisənin tikintisinə başlandıqdan 24 ay müddətinə istismara verilməsi nəzərdə tutulur. İstehsal edilən məhsulların daxili bazarda satılmaqla yanaşı, MDB ölkələrinə ixrac olunması planlaşdırılır. Beləliklə, Ağdam Sənaye Parkı Ağdam rayonunun Qarabağın sənaye mərkəzinə çevrilməsinin əsas özülü rolunda çıxış etməkdədir. Ağdam Sənaye Parkında fəaliyyətə başlayacaq müəssisələr azad edilmiş ərazilərimizin bərpasında və iqtisadi reinteqrasiyasında, bölgənin resurslarının iqtisadi dövriyyəyə cəlb edilməsilə ölkədə qeyri-neft sənayesinin inkişafında, əhalinin yeni iş yerləri ilə təmin olunmasında, məşğulluq səviyyəsinin yüksəldilməsində önəmli yer tutacaq.

Azərbaycan Prezidenti və Birinci vitse-prezidentin Ağdama səfəri zamanı Rayon Mərkəzi Xəstəxanasının təməlinin qoyulması, səhiyyə infrastrukturunun yaradılması, işğaldan azad olunmuş ərazilərimizdə də səhiyyə xidmətlərini əlçatan edəcək ki, bu da öz doğma yurdlarında yenidən məskunlaşan vətəndaşlarımız üçün zəruri sosial və tibbi xidmət təminatı olacaq. Ən mühüm məsələlərdən biri isə 30 il işğal altında qalmaqla erməni vandalları tərəfindən dağıdılan və təhqir edilən mədəni irsimizin bərpası məsələsidir ki, bu istiqamətdə Heydər Əliyev Fondu tərəfindən Ağdam Cümə Məscidində görülən bərpa-restavrasiya işləri mühüm əhəmiyyət kəsb edir. Ağdam Cümə Məscidi xalqımızın yüzilliklər boyu dini-mənəvi həyatında mühüm rol oynamış qiymətli abidələrimizdən biridir. Onun bərpa edilməsi, eyni zamanda mənəvi dirçəlişimiz və bütövlüyümüzün simvollarından birinin bərpası kimi əhəmiyyətlidir. Bütün bu möhtəşəm layihələr həm də dini abidələri, inanc yerlərini əhatə edir. Ölkəmizdə bütün dini ibadət yerləri - sinaqoqlar, kilsələr, məscidlər yenidən inşa edilir və ya bərpa olunur. Möhtərəm Prezidentimizin Ağdama səfəri zamanı çıxışlarında qeyd edildi ki, hazırda təkcə Qarabağda 9 məscid inşa edilir. Şuşada 4 məscid inşa olunur. Dini etiqad və inanc yerlərinin ən gözəl infrastrukturu yaradılır. Ona görə də işğaldan azad olunmuş ərazilərimizdə mədəni və dini abidələrin bərpasında Heydər Əliyev Fondunun rolu olduqca böyükdür və bu, xalqımız tərəfindən çox yüksək qiymətləndirilir.

Azərbaycan Prezidentinin rəhbərliyi və bilavasitə nəzarəti altında işğaldan azad olunmuş ərazilərdə Böyük Qayıdış üçün bütün zəruri tədbirlər görülür, yaşayış evləri, sosial, yol-nəqliyyat, iqtisadi infrastruktur sürətlə bərpa edilir. İşğaldan azad olunmuş ərazilərdə yenidənqurma və bərpa işləri ən müasir standartlara uyğun həyata keçirilir.

**Mustafa KAMAL,**
**"Respublika".**